# MIQATA AID OLAN MÜXTƏLIF MƏSƏLƏLƏR

<"xml encoding="UTF-8?>

MIQATA AID OLAN MÜXTƏLIF MƏSƏLƏLƏR

Məsələ 1. Şəcərə məscidinin ətrafında deyil, onun içərisində ehram bağlamaq vacibdir.

Məsələ 2. Əgər qadın miqatda heyz olsa və yəqin bilsə ki, təməttö ümrəsini vaxtında yerinə yetirə bilməyəcək, gərək ifrad həcci niyyəti etsin və həcc qurtardıqdan sonra ümrə etsin.

Məsələ 3. Əgər Məkkədə olan bir şəxs təməttö ümrəsi yerinə yetirmək istəsə, lakin üzrlü səbəblərə görə miqata gedə bilməsə, hərəmdən çölə çıxıb ehram bağlamalıdır. Bu iş üçün hərəmə ən yaxın olan bir yerə getmək kifayətdir.

Məsələ 4. Başqa ölkələrdən olan şəxslər üçün təməttö və müfrədə ümrələrində olan miqat, qeyd olunan miqatlardır. Baxmayaraq ki, müfrədə ümrəsi üçün Cəddədə nəzir edib ehram bağlamağın caiz olması ehtimaldan uzaq deyil.

Məsələ 5. Məkkəyə getmək istəyən və bundan sonra Məkkədən çıxmalı olan karvanların xidmətçiləri, ehtiyata əsasən, təməttö ümrəsi etməlidirlər və gərək Məkkəyə daxil olmaq üçün qeyd olunan miqatların birinə getməli və orada müfrədə ümrəsi üçün ehram bağlamalıdırlar. Hərəmə ən yaxın məkan bu şəxslərin miqatı deyildir. Müfrədə ümrəsini yerinə yetirdikdən sonra Məkkədən çölə çıxa bilərlər. İkinci, üçüncü və ondan sonra Məkkəyə daxil olmaq üçün ehram vacib deyildir. Bu şəxslər axırıncı dəfə Məkkəyə daxil olarkən Şəcərə məscidi və ya Cöhfə kimi yuxarıda qeyd olunan miqatlara getməli və oradan təməttö ümrəsi üçün ehram bağlamalıdırlar.

Məsələ 6. Miqatdan öncə nəzirlə ehram bağlamaq səhihdir. Buna görə də

məscidə girməkdən şəri cəhətdən üzrlü olan heyzli qadınlar nəzir et-məklə Mədinədə ümrə üçün ehram bağlaya bilərlər. Bu surətdə Şəcərə məscidinə daxil olmaq lazım deyildir. Əgər qadının əri yanındadırsa, onun nəzri ərinin icazəsi ilə olmalıdır.

Məsələ 7. Cöhfə miqatı məscidə məxsus deyil və Cöhfənin hər bir yerində ehram bağlamaq olar.

Məsələ 8. Təməttö ümrəsi ilə həccin ortasında Məkkədən çıxmaq caiz deyil, amma zərurət və ehtiyac olduqda eybi yoxdur. Bu surətdə də, ehtiyata əsasən, həcc ehramı bağlayıb çölə çıxmalıdır. Amma möhrim olmaq çox çətin olduğu surətdə ehramsız da Məkkədən çıxa bilər. Hər hansı bir surətdə Məkkədən çıxmaq həccin düzgünlüyünə zərər yetirməz. Karvan xadimləri və onların oxşarları müfrədə ümrəsi ilə Məkkəyə daxil olub təməttö ümrəsini o za-man yerinə yetirə bilərlər ki, ondan sonra (Ərəfatda vüquf etmək müstəsna olmaqla) bir daha Məkkədən çölə çıxa bilməzlər.

Məsələ 9. Cəddədə ehram bağlayıb təməttö ümrəsinin əməllərin yerinə yetirən şəxs əgər miqata getməkdən üzrlü olmasa və təməttö ümrəsi üçün kifayət qədər vaxt olsa, gərək miqata gedib ehram bağlasın və təməttö ümrəsini təzədən yerinə yetirsin.

Məsələ 10. Təməttö həcci qurtardıqdan sonra bir şəxs Məkkədən xaric olsa və yenidən Məkkəyə getmək istəsə, təməttö ümrəsinin ehramından bir ay keçməmişdirsə, ehram bağlamaq lazım deyil və ehramsız Məkkəyə daxil ola bilər.

Məsələ 11. Müfrədə ümrəsi yerinə yetirmiş bir şəxs bir aydan az fasilə içərisində miqatdan ehramsız keçə bilər.

Məsələ 12. Əgər qadının əri öz yanında olmasa, miqatdan qabaq ehram bağlamaq üçün nəzir etməsi ərinin icazəsinə bağlı deyil, amma əgər əri yanında olsa, ehtiyat budur ki, onun icazəsi olmadan nəzir etməsin. Belə ki, əgər nəzir etsə,

səhih deyildir.

Məsələ 13. Miqatdan qabaq nəzir etmək naib üçün də caizdir.

Sual. Bir dəstə camaat Taif yolu ilə Məkkəyə doğru gedirdilər. Qərnul-mənazilə çatmazdan qabaq onları Qərnul-mənazil yolu ilə getmələrinə mane olub Əqiq vadisi istiqamətində göndərdilər. Buna görə də onlar Əqiq vadisində ehram bağladılar. Onların ehramının hökmü necədir?

Cavab. Səhihdir.

Sual 2. Mədinədən Məkkəyə ge-dən heyzli qadın güman edirdi ki, Şəcərə məscidindən keçərkən möhrim ola bilər və öz vəzifəsinə əməl edə bilər. Amma məscidinin həyətinə çatdıqda camaatın çox olması ucbatından məsciddən keçməklə möhrim ola bilməyəcəyini görür və buna görə də nəzir etmək üçün öz yanında olan ərindən icazə alır və məsciddən bir neçə addım aralıda dayanıb nəzir etməklə möhrim olur. Onun əməli kifayətdir, ya yox?

Cavab. Əgər miqatdan qabaq nəzirlə ehran bağladığını yəqin bilsə, eybi yoxdur.

Sual 3. Heyzli qadın Şəcərə məscidindən keçən halda ehram bağlaya biləcəyini güman edib məscidə daxil olur və fasiləsiz olaraq ehram bağlayır, “ləbbeyk”-ləri deyir və çölə çıxmaq istədiyi qapıya tərəf bir neçə addım irəliləyir, lakin keçə bilməyəcəyini görüb geri qayıdır. Nəticədə məscidə daxil olduğu qapıdan çıxır. Onun ehramının hökmü nədir?

Cavab. Səhihdir.

Sual 4. Əgər miqatdan xaric olduqdan sonra başa düşsə ki, “ləbbeyk”-ləri deməyib və ya başqa səbəbə görə ehramı düz deyildir, belə ki, əgər olduğu yerdən miqata qayıtmaq istəsə mümkün olmayacaq, amma əgər Məkkəyə getsə qayıda

biləcəkdir, bu halda Məkkəyə gedib oradan miqata qayıda bilərmi, yoxsa olduğu yerdəcə ehram bağlamalıdır?

Cavab. Əgər miqata qayıda bilərsə, hətta Məkkəyə getməklə də olsa, başqa bir vacib əməl üçün qeyri-miqatda ehram bağlaya bilməz. Amma ən yaxın məkandan Məkkəyə daxil olmaq üçün müfrədə ümrəsi niyyəti ilə möhrim olmalıdır. Onun əməllərini yerinə yetirdikdən sonra müəyyən olunmuş miqatlardan birinə getməli və təməttö ümrəsi üçün ehram bağlamalıdır.